Respublika .- 2024.- 16 iyul, (№ 147).

*Bir kitabın təqdimatı fonunda düşüncələr*

***Keçmişin ənənələrinə söykənib bu gündən gələcəyə doğru istiqamətlənən əsl tarix indiki və gələcək zamanın birgəliyində yaranır. Bu gün qloballaşan dünyamızda isə yazılı soraqların əhəmiyyəti daha aydın görünür. Min illər boyu möhtəşəm tarix yaradan əcdadlarımız isə onu yazmamış, salnaməçiliyi sonraya saxlamış, yaxud bu işi əksər hallarda başqa soylardan olanların öhdəsinə buraxmışdır və biz bunun acısını hələ də çəkirik. Bu mənada, tarixin verdiyi acı dərslərdən nəticə çıxarmaq üçün yaxın, ya uzaq Azərbaycan tarixinə aid hər hansı yazı, yaxud kitab xalqımızın gələcəyi baxımından çox dəyərlidir. Elçin Bilaloğlunun "Kim üzr istəməlidir?" kitabında isə biz 200 illik tariximizin real mənzərəsini görürük...***









# Vətənpərvərlik içdən gələn duyğudur

## *Bu hisslərin formalaşmasında, maraqların qorunmasında musiqi də kəsərli bir "silah"dır*

Bu yaxınlarda akademik Cəmil Əliyevin rəhbərlik etdiyi Milli Onkologiya Mərkəzində növbəti müalicə kursundan keçirdim. Bir axşam kimyaterapiya şöbəsinin həkimi, həmçinin mənim müalicə həkimim, tibb üzrə fəlsəfə doktoru Elçin Mansurov palatama daxil oldu. Bilirdim ki, öz işinin peşəkarı olan Elçin həkim evə çox gec gedir. Çox vaxt, hətta bazar günlərində belə gəlib öz otağında saatlarla çalışır. Şöbənin bütün tibb işçiləri onu bir ata kimi sevirlər. Həkim və tibb bacılarının əksəriyyətinə "qızım" deyə müraciət edir. Mənim də həkimimə çox böyük hörmətim var.

Palatamın qapısını yavaşca döyərək içəri daxil olan Elçin həkimin əlində iri bir kitab var idi. Halımı soruşub dedi:

- Evə getmədən öncə dedim ki, sizi bir daha görüm. Sizə müəllifi olduğum bir kitabımı bağışlamaq istəyirəm. Yeni çapdan çıxıb. Üzərində illər idi ki, çalışırdım. İstəyirsiniz, bir tanış olun, axşamlar oxuyun, darıxmazsınız. Sizin fikriniz mənim üçün çox önəmlidir.

Həkimimə təşəkkürümü bildirdim, mənimlə sağollaşıb getdi. Kitabı vərəqləməyə səbirsizlənirdim, çünki həkimimin bu qabiliyyətindən xəbərim yox idi. İlk öncə kitabın adı diqqətimi cəlb etdi: "Kim üzr istəməlidir?". Oxumağa başladım. Getgedə marağım artdı. Kitabda ermənilərin əzəli Azərbaycan torpaqlarına köçürülməsindən, erməni-bolşeviklərin bu ərazidə Ermənistan dövlətini necə yaratmalarından və erməni millətçilərinin "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlarından tarixi faktlar əsasında danışılırdı. Səmimi deyim ki, kitabı hər gün saatlarla oxuyurdum və 10 günün necə gəlib keçdiyini heç hiss etmədim. Elçin həkim məni xəstəxanadan evə buraxanda soruşdu: "Xuraman xanım, Onkologiya Mərkəzinin rəhbərliyi tərəfindən mənə təklif etdilər ki, kitabımın təqdimatını keçirim. Sizi dəvət etsəm, gələrsinizmi?". "Böyük məmnuniyyətlə gələrəm və imkan olsa, öz təəssüratlarımı da paylaşaram", - deyib xəstəxanadan ayrıldım.

Çox keçmədən Elçin həkim məni kitabın təqdimat mərasiminə dəvət etdi.

Təqdimat Milli Onkologiya Mərkəzinin böyük konfrans zalında keçirilirdi. O, müalicə korpusunun önündə məni qarşıladı və zala doğru getdik. Çox həyəcanlı görünürdü. Zala daxil olanda mən də həyəcanlıydım, eyni zamanda həkimimin bu uğuruna görə qürurlu idim. Zal dolu idi. Təqdimata nüfuzlu elm xadimləri, tarixçilər, tanınmış şəxsiyyətlər dəvət olunmuşdu. Elçin həkimin həmkarları da onu dəstəkləməyə gəlmişdilər.

Tədbiri giriş sözü ilə Milli Onkologiya Mərkəzinin baş həkimi, tibb elmləri üzrə fəlsəfə doktoru Azad Kərimli açdı, sonra söz sıra ilə dəvət olunan qonaqlara, alimlərə, tanınmış tarixçilərə verildi. Mən ön sırada həkimimin yanında oturmuşdum. Çıxış edənlər "Kim üzr istəməlidir?" kitabı barədə elə dəyərli, yüksək sözlər, təriflər deyirdilər ki, gözlərim belə yaşarırdı. Mütəxəssislər tərəfindən kitaba böyük, yüksək, layiqli qiymət verilmişdi: "Kim üzr istəməlidir?" erməni yalanlarını ifşa edən və Azərbaycan həqiqətlərini dünyaya yaya biləcək mükəmməl bir tarixi əsərdir!

Mən vətənpərvər Azərbaycan ziyalısı, incəsənət və mədəniyyət xadimi kimi vətənimizin ayrılmaz bir hissəsi, incisi olan Qarabağımızı çox sevirəm. Hələ gənc yaşlarında ailəmizlə birgə o bölgələrin bəzi şəhərlərində olmuşam. Mənfur ermənilər xəstəliyə çevrilmiş fanatik iddialarını, Azərbaycana qarşı müharibəni bütün dünyaya açıq şəkildə bəyan etmişdilər. Vətənini sevən hər bir azərbaycanlının borcu bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq idi. Mən və böyük bacım Fidan xanım ermənilərlə "sənət" cəbhələrində savaşaraq hər zaman rəqiblərimizə qalib gəlmişik. Xalqımızın zəngin mədəniyyətə, böyük istedada malik olmasını musiqinin dili ilə çatdırmağa çalışmışıq. Bir sözlə, musiqi bizim "silahımız" olub. Yaxşı bəllidir ki, xarici ölkələrdə erməni lobbisi çox güclüdür. Gecə-gündüz öz şovinist ideyalarının təbliği ilə məşğuldurlar.

Bəzən Azərbaycan incəsənət xadimlərinin, tanınmış ifaçıların uğurlu çıxışlarına mane olmaq üçün min cür hiylələr qururdular. Lakin biz mədəni şəkildə öz gücümüzü sübut edir, qabiliyyətimizi nümayiş etdirirdik. Azərbaycan xalqını sənətimizlə tanıdaraq onların qurduqları tələlərə düşmürdük, çünki bizim "silahımız" daha üstün və güclü idi. Bütün qazandığımız birinci dərəcəli diplomlar, mükafatlar bunun açıq göstəricisidir.

Bu şovinistlər isə *(şovinizm-ifrat millətçilik, millətlərarası münasibətləri daim qızışdırmağa yönəlmiş mürtəce siyasətdir. Bu, həm də milli üstünlük səviyyəsində şişirdilmiş, aqressiv və düşməncəsinə inancdır)* bacardıqlarını edirdilər. Bu nöqteyi-nəzərdən ermənilərin əsassız Qarabağ, hətta bütöv Azərbaycan iddialarına və bu iddialarına çatmaq üçün onların qeyri-insani hərəkətlərə, vəhşiliklərə və digər haqsızlıqlara həsr olunmuş yazılarla xüsusi maraqlanıram. Axı mən özüm də, faktiki olaraq, ermənilərin xalqımıza qarşı törətdikləri haqsızlıqların qurbanı sayıla bilərəm. 1990-cı ilin 20 yanvarını - Qanlı Yanvar gününü xalqımız heç bir zaman unutmayacaq. Xüsusən mən! Həmin gecə keçirdiyim stres nəticəsində bir-iki il sonra məndə xərçəng xəstəliyi aşkar olundu...

Qeyd etmək lazımdır ki, bu sahədə olan çoxsaylı yazılar bir növ pərakəndə, sistemləşməmiş şəkildədir. Bu da həmin yazıların, haqqında bəhs edilən hadisələrin, şovinist ermənilərin əməllərinin kompleks şəkildə öyrənilməsinə, onlara hüquqi qiymət verilməsinə, olduğu kimi dünyaya çatdırılmasına tam imkan vermir. Mənim fikrimcə, Azərbaycan Respublikasının Əməkdar həkimi, Tibb üzrə fəlsəfə doktoru, Milli Onkologiya Mərkəzinin həkimi Elçin Bilaloğlunun bu mövzuya həsr olunmuş "Kim üzr istəməlidir?" kitabı qeyd edilən boşluqları doldura biləcək mükəmməl, ensiklopedik, tarixi elmi-publisistik əsərdir! Təqdimat günü tribunadan çıxış edən alimlər, elm xadimləri də bu fikirləri dəfələrlə vurğuladılar. Mən isə səhnəyə çıxış üçün dəvət olunanda "Kim üzr istəməlidir?" kitabının mənə çox dərin təsir bağışladığını söylədim. Həqiqətən, müəllif kitabı elə faktlar əsasında yazıb ki, hər səhifə sanki film kimi göz önündə canlanır. İstərdim kitabı səciyyələndirən 3 amili qeyd edim:

İlk olaraq deyim ki, kitab kifayət qədər böyükhəcmli (348 səhifə) olmaqla bərabər, çox yüksək poliqrafik qaydada və keyfiyyətli, nəfis şəkildə çap olunub. Kitabdakı bütün fotolar bioloji boyalarla işlənib ki, bu da onların kimyəvi təhlükəsizliyinə zəmanət verir.

İkincisi, kitabın müəllifi həkimdir. 40 ildən çoxdur təbabətin və cəmiyyətin ən ağır xəstəliklərindən biri olan onkoloji xəstəliklərin müayinə və müalicəsi, həm də bu sahədə elmi araşdırmalarla da məşğuldur. Kitabın 18-ci səhifəsində göstərildiyi kimi, 100-dən artıq elmi əsərin həmmüəllifidir. Bunlardan 23-ü ABŞ, Kanada, İsveçrə, Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstanda çap olunub. Həm də bu əsərlərin həsr olunduğu araşdırmalardan 3-ü ilk dəfə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzində aparılıb. Digər özəlliklərdən biri də müəllifin vətənpərvərliyidir. Belə ki, yeni formalaşan Azərbaycan dövlətinin iqtisadiyyatına, az da olsa, dəstək olmaq üçün 26-27-ci səhifələrdə göstərildiyi kimi, o, 1992-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyi Özünümüdafiə və Ləl-Cəvahirat Fondlarına maddi vəziyyəti zəif olmasına baxmayaraq, imkanı daxilində ianələr edib. 1994-cü ildə dövlət çevrilişinə cəhd zamanı Ulu Öndər Heydər Əliyevi dəstəkləyən yüz minlərlə azərbaycanlıdan biri olub. Müəllif növbəti dəfə vətənpərvərlik nümunəsi göstərərək yeni kitabının satışından əldə olunan gəliri Qələbəni bizə yaşadanları yaşatmaq üçün yaradılan "YAŞAT" funduna ianə edir.

Nəhayət, qeyd edək ki, kitab-əsər mükəmməl formada yazılıb. Onun mükəmməlliyini özünəməxsus üslubu da şərtləndirir. Məlumatlar son 200 ili əhatə etməsinə baxmayaraq, burada azərbaycanlılara qarşı 1988-ci ildən törədilən vəhşiliklər barədə məlumatlar çoxluq təşkil edir. Kitabda Birinci və İkinci Qarabağ müharibələri vaxtında erməni şovinistlərinin günahsız mülki əhaliyə, girovlara, əsirlərə, mədəni və dini abidələrimizə, qəbirlərimizə, dövlət və mülki əmlaklarımıza, ekologiyamıza, flora və faunamıza qarşı törətdikləri vəhşiliklər, hazırda davam edən mina terroru, həmçinin erməni qəddarlığına alternativ olaraq azərbaycanlıların onlara qarşı humanist hərəkətləri haqqında da danışılır. Xronoloji ardıcıllıq və müvafiq fotolarla təqdim edilmiş bu məlumatları oxuduqdan sonra təbii ki, belə bir sual yaranır: kim üzr istəməlidir?

Çıxışımda müəllifi, həkimimi ürəkdən təbrik edərək belə bir fikir də söylədim ki, kitab daha geniş oxucu kütləsi üçün nəzərdə tutulmalıdır. Əlbəttə, kitab erməni şovinizmini və bundan qaynaqlanan vəhşilikləri, bir sözlə, tariximizin bəzi qaranlıq məqamlarını öyrənən elmi işçilər üçün də faydalı ola bilər. Ən sonda səmimiyyətlə qeyd etdim: Azru edərdim ki, "Kim üzr istəməlidir?" kitabı Qarabağın azad olunmasında misilsiz əməyi olan hər kəsə, dövlət başçısına, onun silahdaşlarına, ordumuza, qazilərimizə, şəhid ailələrinin üzvlərinə də təqdim olunsun.

Şücaətli ordumuza, qəhrəmanlarımıza eşq olsun! Torpaq uğrunda şəhid olanlara Allah qəni-qəni rəhmət etsin! Qarabağ Azərbaycandır!

**Xuraman QASIMOVA,**
**Azərbaycanın Xalq artisti,**
**Dövlət mükafatı laureatı.**